# AZƏRBAYCAN DİALEKTOLOGİYASINA DƏYƏRLİ TÖHFƏ




AMEA Naxçıvan Bölməsi Təhsil və kadrlar şöbəsinin baş mütəxəssisi, filologiya üzrə fəlsəfə doktoru Leyla Səfərovanın “Azərbaycan dilinin Culfa şivələrinin fonetikası” adlı monoqrafiyası maraqlı mövzunu əhatə edir. Naxçıvan Muxtar Respublikasının yaradılmasının 95 illiyinə həsr olunan bu əsər Bakıdakı “Elm və təhsil” nəşriyyatında işıq üzü görüb. Kitabın redaktoru filologiya üzrə fəlsəfə doktoru Rəşad Zülfüqarov, rəyçiləri akademik Möhsün Nağısoylu, dosentlər Kifayət İmamquliyeva və Nuray Əliyevadır.

Əshabi-Kəhf, Əlincə qalası, Gülüstan türbəsi, Əlincəçay Xanəgah abidələri, Qazançı körpüsü və s. kimi qədim tarixi yurd yerlərimizi qoynuna alan Culfa rayonu doğma Naxçıvanımızın 7 rayonundan biridir. Əsər də bu qədim yaşayış məskənin kəndlərindən toplanan dil faktlarına istinadən yazılıb.

Culfa şivələrinin fonetikasına həsr olunan əsər “Culfa rayonu haqqında” yığcam məlumatla başlayır. Bu təqdimatda Araz çayı boyunca uzanan karvan yolu üzərində yerləşən qədim Culfa inzibati-ərazisinin sərhədləri, arxeoloji qazıntıları, faydalı qazıntıları, əhalinin məşğuliyyəti və s. haqqında qısa məlumat verilir. Həmçinin Culfa sözünün etimologiyası haqqındakı mənbələrdəki müxtəlif fikirlər müqayisəli şəkildə təhlil olunur.

Quruluş etibarilə əsər giriş, iki fəsil, nəticə və istifadə edilmiş ədəbiyyatın siyahısından ibarətdir. Həmçinin əsərdə transkripsiya, yer adlarının ixtisarı və əlavə mətnlər də verilmişdir.

Monoqrafiyanın “Giriş” hissəsində mövzunun aktuallığı, obyekti və predmeti, məqsəd və vəzifələri, elmi yeniliyi, onun metodu, nəzəri və praktik əhəmiyyəti haqqında məlumat verilir. Naxçıvan dialekt və şivələrinin tədqiq olunma səviyyəsi öyrənilir, bu sahədə görülən işlərdən bəhs açılır. Həmçinin Ana dilimizin böyük hamisi, ümummilli lider Heydər Əliyevin başlatdığı dil siyasəti, imzaladığı silsilə fərman və sərəncamların xronoloji ardıcıllığı verilir və əhəmiyyətindən danışılır.

I fəsil “Azərbaycan dilinin Culfa şivələrinin saitlər sistemi” adlanır. Bu fəsildə Culfa şivələrinin saitlər sisteminin fonetik xüsusiyyətləri ilə yanaşı fonetik hadisə və qanunlardan bəhs olunur.

İlk yarımfəsildə uzun saitlər, qısa saitlər, burun saitləri və diftonqların təsnifatı aparılır. Saitlərin artımı, saitlərin düşümü, həmçinin heca düşümü (gətdi, otdu) və s. fonetik hadisələr Culfa rayon şivələrində müşahidə olunan dil faktları nümunə göstərilməklə təhlil olunur. Bunu yaradan səbəblər izaha cəlb edilir.

Müəllif yazır ki, ahəng qanunu nəinki Naxçıvanın dialekt və şivələrində bütövlükdə Azərbaycan dilinin digər dialekt və şivələrində bir o qədər də möhkəm olmayan qanundur. Bir çox hallarda ahəng qanunu pozulur. Nümunə olaraq əlu, yeru, əla, yera (Şərur) və ya qəbax, gəlax, gedax (Ordubad) və s. dil faktları göstərilir.

Mövcud olan dil elementlərində tarixiliyin yaşaması gələcək nəsillərə ötürülməsi, dilin tarixi köklərini yaşatmaqdır.

“Azərbaycan dilinin Culfa şivələrinin samitlər sistemi” adlı II fəsildə Culfa şivələrinin samitlər sisteminin fonetik xüsusiyyətləri, həmçinin Culfa şivələrinin samitlər sistemində fonetik hadisələrdən bəhs edilir. Bu fəslin müxtəlif yarımfəsil və bəndlərində samit əvəzlənməsi, samitlərin artımı, samitlərin düşümü və s. dil məsələləri müzakirə müstəvisinə gətirilir. Bunlardan bəzilərinə nəzər salaq: Assimiliyasiya (səslər özündən əvvəlki və ya sonrakı səsi özünə tabe edir): tam irəli assimiliyasiya, yarımçıq irəli assimiliyasiya, tam geri assimiliyasiya, yarımçıq geri assimiliyasiya, rl-nl şəhərri, ağırramaq, fərri, nl-nn qannı, qoyunnar, ilannar, dl-dd daddı; Dissimiliyasıya səsin məxrəcə tabe olması irəli və geri dissimiliyasıya məsələn, zərər - zərəl; Söz köklərində samitlərin qoşalaşması oqqədər, həmməşə, avvam, nəqqədər, şamma; Metateza (Yerdəyişmə) Culfa şivələrində yanaşı yerdəyişmə: İrbaham, qırvım, qırvax, barğım, kivrə; Yanaşı olmayan yerdəyişmə: təyziq, nəhlət, görsət, kələyağı və s.

Vurğu Azərbaycan ədəbi dilində olduğu kimi, Culfa şivəsində də vurğu ikinci hecaya düşür. Müəllif bəzən bu dəmir qaydanın morfoloji ayrılıqlar zamanı dəyişdiyini canlı xalq danışığından topladığı dil faktları ilə sübut edir.

Hər iki fəsildə Culfa rayonu və onun kəndlərindən toplanan materiallar əsasında fonetik tədqiqatlar aparılaraq, həmin bölgənin şivələrinin səs tərkibi öyrənilərək müxtəlif dil faktları bir sıra türk ədəbi dilləri, eləcə də dialekt və şivələri ilə müqayisəli şəkildə araşdırılır.

Culfa şivələrinin sistemli şəkildə tədqiqata cəlb edən tədqiqatçı həmin şivənin fonetik tərkibi, fonetik hadisələr barədə araşdırma apararkən təsviri üsulla bərabər, istər dilimizin digər dialekt və şivələri ilə, istərsə də digər türk ədəbi dillərinin, onların dialekt və şivələrinin, həmçinin qədim yazılı abidələrinin materiallarından müqayisəli şəkildə istifadə etmişdir.

Müəllif zəngin məhəlli dil faktları ilə yanaşı son illərin nəşri olan 130-a yaxın ədəbiyyat siyahısından istifadə edib. Monoqrafiyanın sonu ümumiləşdirilmiş nəticələrlə bitir.

Leyla Səfərovanın Naxçıvan dialekt və şivələrinin öyrənilməsinə yeni baxış bucağından yanaşılaraq ərsəyə gətirdiyi “Azərbaycan dilinin Culfa şivələrinin fonetikası” adlı monoqrafiyası dilçilik elminə dəyərli töhfədir. Həmçinin bu əsər Azərbaycan dilinin dialektologiyası, ədəbi dilimizin tarixi, lügətçiliyimiz, şifahi söz sənətimiz, bütünlükdə xalqımızın soy kökü, etnoqrafiyası, tarixi üçün faydalıdır.

✍ **Zülfiyyə İsmayıl,**
AMEA-nın Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent